*YAPONIYANIN AZƏRBAYCANDAKI SƏFIRLIYI*

Hyatt Tower 3, 6-cı mərtəbə
Izmir küç. 1033, Bakı

30 aprel, 2009-cu il

# *Mətbuat üçün Məlumat*

***Yaponiya Hökumətinin "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində həyata keçirilmiş Ağcabədinin Hüsülü kəndində tibbi məntəqə binasının inşası layihəsinin başa çatması münasibəti ilə açılış mərasiminin keçirilməsi***

5 may 2009-cu il tarixdə saat 14:00-da Yaponiyanın "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində həyata keçirilmiş Ağcabədinin Hüsülü kəndində tibbi məntəqə binasının inşası layihəsinin başa çatması münasibəti ilə açılış mərasimi keçiriləcəkdir. Mərasimdə Yaponiyanın Azərbaycan Respublikasındakı Səlahiyyətli və Fövqəladə Səfiri cənab Masamitsu Oki, Ağcabədi rayon İcra Hakimiyyəti Başçısı cənab Şahin Məmmədov və müvafiq təşkilatların nümayəndələri iştirak edəcəklər.

Sözügedən layihə üzrə qrant müqavilə Yaponiya Səfirliyi və "İnkişaf 2006" Qeyri Hökumət təşkilatı arasında 17 dekabr 2008-ci ildə imzalanmışdır. Layihənin əsas məqsədi Ağcabədinin Hüsülü kəndində tibbi məntəqədə tibbi xidmətin səviyyəsini yaxşılaşdırmaqdır. Layihədən faydalanacaq şagirdlərin sayı 9,800 nəfərdir. Layihənin ümumi dəyəri isə **87,977 ABŞ dollarıdır**.

Yaponiya Hökumətinin "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardım Proqramı" 2000-ci ildən Azərbaycan Respublikasında həyata keçirilir. Bu qrant proqramı Azərbaycan xalqının yaşayış standartlarının yaxşılaşdırılmasına yönəlmiş və bələdiyyələr, tibbi müəssisələr, təhsil müəssisələri və QHT-lər tərəfindən həyata keçirilən nisbətən kiçik miqyaslı layihələrə ayrılır. Belə layihələr səhiyyə, tibb, ibtidai və orta təhsil, sosial müdafiə, ətraf mühit, yoxsulluğun azaldılması və gəlirlərin artırılması sahəsində həyata keçirilə bilər. İndiyə kimi bu proqram çərçivəsində Azərbaycan Respublikasında ümumi məbləği **8, 070, 000** ABŞ dolları olan **115** layihə həyata keçirilmişdir.

Yaponiyanın Azərbaycana ayırdığı Rəsmi İnkişaf Yardımı iqtisadi infrastrukturun yaxşılaşdırılması, kənd təsərrüfatı, sosial sahə, mədəniyyət və insan resurslarının inkişafı kimi geniş sahələri əhatə etməklə ümumi məbləği **1030.114** milyard ABŞ dolları təşkil etmişdir.

***Mətbuat Nümayəndələri açılış mərasimində iştirak etməyə dəvət olunur. Əlavə məlumat üçün Eri Momiyama (ancaq rus və ingilis dillərində) və Leyla Hacızadə ilə aşağıdakı nömrələr vasitəsilə əlaqə saxlaya bilərsiniz:***

**490 78 18/490 78 19; Fax: 490 78 20**